

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

5 avqust 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 29 (3542)

# "ASAN XİDMƏT" DÜNYADA AZƏRBAYCAN BRENDİ KİMİ TANINIR

## *Dövlət orqanlarının xidmətlərində şəffaflığın təmin edilməsi diqqət mərkəzindədir*

Prezident İlham Əliyevin dövlət idarəetməsində həyata keçirdiyi müasir islahatların əsas istiqaməti kimi şəffaflıq, səmərəli fəaliyyət və vətəndaş məmnunluğunun təmin edilməsi prioritet olub. Məhz bu siyasətin nəticəsidir ki, hazırda ölkəmizdə demokratik mexanizmlərin yaradılması və xalqa xidmət müstəvisində müasir idarəetmə modeli olan "ASAN xidmət" Azərbaycan brendi kimi dünyada tanınır və öyrənilir.

Dövlətimizin başçısı İlham Əliyev tərəfindən avqustun 3–də Bakıda 6-cı, ölkə üzrə isə 21-ci olan 6 saylı "ASAN xidmət" mərkəzinin istifadəyə verilməsi əhalinin dövlət orqanlarının xidmətlərinə əlçatanlığının təmin edilməsi istiqamətində həyata keçirilən dövlət siyasətinin bu gün də uğurla davam etdirildiyini təsdiq etdi.

Mərkəzin açılışında iştirak edən ölkə rəhbərinə məlumat verilib ki, burada müxtəlif dövlət orqanları, özəl şirkətlər və kommunal xidmət qurumları qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara ümumilikdə 320-dən çox xidmət göstərəcək. Bu mərkəzdə ümumilikdə 230 əməkdaş və 85 könüllü çalışacaq. Onların mütləq əksəriyyəti şəhid ailələrinin üzvləri, qazilər və Vətən müharibəsinin iştirakçılarıdır.



Bildirilib ki, hazırda fəaliyyət göstərən 20 "ASAN xidmət" mərkəzinin 5-i Bakıda, digərləri isə bölgələrdədir. Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur. Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi də davam etdirilir. Bu günədək "ASAN xidmət"ə 7 milyon 465 mindən çox vətəndaşın 45 milyondan artıq müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

Prezident İlham Əliyevin 2020-ci ilin noyabrında imzaladığı Sərəncama uyğun olaraq yaradılan vahid məlumat bazasında Vətən müharibəsi zamanı mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, sahibkarlıq subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı ətraflı məlumat yerləşdirilib.




Dövlətimizin başçısına 16 ölkədən 500-dən çox iştirakçının qatıldığı Qlobal Müdafiə Texnologiyaları Hakatonu və Vətən müharibəsində tvit siyasəti barədə də məlumat verilib.

Qeyd edək ki, müharibə dövründə ilk yerdə dövlətimizin başçısının tvitləri dayanıb. Bu tvitlərə 396 min baxış olub. #karabakhisazerbaijan həştəqi 800 mindən çox paylaşılmaqla bu mövzuda ən çox paylaşılan həştəq olub.

Prezident İlham Əliyevə ASAN sosial innovasiyalar texnoparkı, görmə məhdudiyyətli şəxslər üçün xüsusi eynək layihələri və ASAN ICESCO mükafatı barədə də məlumat verilib.

# POLİS ORQANLARINDA XİDMƏT ETMƏK ARZUSUNDA OLAN GƏNCLƏRİN SIRA BAXIŞI KEÇİRİLİB



**Avqustun 3-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında və Əlahiddə Çevik Polis Alayında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**

Nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Kütləvi informasiya vasitələrində, o cümlədən Nazirliyin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, Nazirliyə onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 194 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Qeyd edək ki, onlardan 62 nəfəri torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmiş gənclər, 4 nəfəri isə şəhid ailələrinin üzvləri olub.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ölkəmizin hərtərəfli inkişafında, həmçinin Vətən Müharibəsində gənclərimizin böyük rolu olduğunu, ölkəmizin ümumi inkişafına böyük töhfə verdiklərini vurğulayıb. O, daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə fəaliyyətlərində uğurlar arzulayıb və tövsiyələrini verib.

# Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin birgə məlumatı

Daxil olmuş məlumatlar və aparılan yoxlamalar nəticəsində paytaxt ərazisində yerləşən bir neçə tibb müəssisəsində pul müqabilində bəzi vətəndaşlara dair məlumatların vaksinasiya prosesindən keçmədən "e-TƏBİB" elektron qeydiyyat sisteminə yerləşdirilməsi və bununla da həmin şəxslərin guya vaksin olunmaları ilə bağlı saxta COVID-19 pasportu ilə təmin edilmələri məlum olub.

Belə ki, həyata keçirilən əməliyyat zamanı müəyyən olunub ki, Sabunçu rayonunda yerləşən 11 saylı poliklinikanın qeydiyyatçısı Nəzrin Məmmədova, həmin tibb müəssisəsinin, eləcə də Bakı şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının həkimləri Gülnarə Mədətzadə və Vaqif Mirzəyevlə əlbir olaraq vətəndaşlardan 150 manat məbləğində pul alıb onlara vaksinasiyadan keçmədən peyvənd olunmalarını özündə əks etdirən saxta sənəd təqdim ediblər. Bu şəxslərin eyni üsulla çoxsaylı vətəndaşlardan pul alaraq onları peyvənd olunmadıqları halda "e-TƏBİB" elektron qeydiyyat sistemində vaksin olunmuş şəxslərin siyahısına daxil etdikləri də məlum olub.

Analoji hal Bakı Şəhər Baş Səhiyyə İdarəsinin Kürdəxanı Sağlamlıq Mərkəzində də aşkar edilib. Müəyyən olunub ki, həmin mərkəzin həkimi Ayaz Kərimov qeyd edilən müəssisədə tibb bacısı işləyən Kəmalə Əliyeva ilə birlikdə pul müqabilində ayrı-ayrı vətəndaşlar barədə guya onların vaksin olunmalarını özündə əks etdirən saxta məlumatları "e-TƏBİB" elektron qeydiyyat sisteminə daxil ediblər. Bununla da Ayaz Kərimov və Kəmalə Əliyeva tərəfindən pul aldıqları vətəndaşlara peyvənd olunmadan onlara vaksin vurulduğu barədə saxta sənəd təqdim olunub.

Qeyd edilən hər iki faktla bağlı Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin İstintaq və Təhqiqat İdarəsində istintaq hərəkətləri aparılır. İş üzrə əhəmiyyət kəsb edən halların, göstərilən qanun pozuntularında hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Baş Prokurorluq və Daxili İşlər Nazirliyi vətəndaşlara müraciət edərək koronavirus əleyhinə peyvənd vurulması, habelə COVID-19 testinin nəticələri ilə bağlı vətəndaşlara saxta sənəd verilməsi halları ilə üzləşdikdə "102" Xidməti Zəng Mərkəzi, "961" nömrəli "Çağrı Mərkəzi", "161" nömrəli "Qaynar xətt" əlaqə mərkəzi, o cümlədən Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin sosial şəbəkələrdəki səhifələri vasitəsilə məlumat verilməsini xahiş edir.

# OĞULLAR TARİX YAZIR

## O, xüsusi təyinatlı qətiyyəti ilə döyüşdü...

**44 gün davam edən Vətən müharibəsində böyük şücaət göstərərək, dəmir yumruqla düşmənin başını əzən və şəhidlik məqamına yüksələn cəsur hərbi qulluqçularımızdan biri də gizir Ələkbərov Vüqar Telman oğludur.**



Qəhrəmanımız 1994-cü il noyabrın 16-da Ucar rayonunun Qazyan kəndində doğulub. Orta təhsilini boya-başa çatdığı Qazyan kənd 2 saylı tam orta məktəbində alan Vüqar, 2010-cu ildə həmin təhsil ocağının 9-cu sinfini bitirdikdən sonra Göyçay şəhərindəki Dövlət İdarəetmə və Texnologiya Kollecinə qəbul olunub. 2014-cü ildə kolleci “Nəqliyyat vasitələrinin təmiri və servis xidməti” ixtisası üzrə bitirib. Müddətli həqiqi hərbi xidmətini 2014-cü ilin iyulundan 2016-cı ilin yanvarınadək Daxili Qoşunların Bakı şəhərindəki “N” saylı hərbi hissəsində keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların Bərdə rayonundakı “N” saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilərək, Vətənə olan şərəfli borcunu yerinə yetirməyə davam edib. 2017-ci ilin fevralından Qoşunların Gəncə şəhərində yerləşən “N” saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müxtəlif vəzifələrdə xidmətini davam etdirən silahdaşımız 2018-ci ilin may ayından atəş təminatı qrupunda iriçaplı pulemyot yarımqrupunun komandiri vəzifəsinə irəli çəkilib.

“N” saylı hərbi hissənin “Pələng” şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində qrup komandiri olmuş, 3-cü dərəcəli “Rəşadət” ordeni, “Şuşanın azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilmiş baş leytenant Xəqani Məmmədov: “Vüqar qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirən, nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçu olub. Olduqca vətənpərvər və bacarıqlı yarımqrup komandiri kimi tabeliyindəki şəxsi heyətə tələbkarlığı ilə yanaşı, onlardan qayğısını da əsirgəməyib. Sonuncu dəfə Füzulidə qarşılaşdıq. Döyüşə gedirdik. Onun üzündəki təbəssümü indi də xatırlayıram...”.

Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlarda fəal iştirak edən gizir V.Ələkbərov Murovdağ silsiləsi, Cəbrayıl, Füzuli rayonlarının və Xocavənd rayonunun Hadrut qəsəbəsi ətrafındakı bir sıra yaşayış məntəqələrinin və strateji əhəmiyyətli yüksəkliklərin azad olunmasında, eləcə də düşmənin xeyli sayda canlı qüvvəsinin və hərbi texnikasının məhv edilməsində böyük şücaət göstərib.

12 oktyabr 2020-ci il... Füzuli-Cəbrayıl rayonları istiqamətində gedən döyüş Vüqarın son döyüşü oldu. Onunla birgə bu döyüşdə iştirak etmiş “Pələng” xüsusi təyinatlı dəstəsində yarımqrup komandiri, “Şuşanın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif edilmiş gizir Pərvin Rəhimli vətənpərvər silahdaşının qəhrəmanlığını heç



zaman unutmayacağını deyir: “Vüqarla birgə Vətən müharibəsinin ilk günündən eyni qrupun tərkibində döyüş əməliyyatlarında iştirak etmişəm. Deyərdim ki, əsl hərbi qulluqçuya xas olan bütün müsbət keyfiyyətlər sanki onda cəmləşmişdi. Olduqca vətənpərvər, qorxu nə olduğunu bilməyən, dostluğa və yoldaşlığa önəm verən bir insan idi. Şəxsi heyət arasında Vüqarın hörmət və nüfuzunu yüksəldən başlıca amil də məhz onun bu xarakterik xüsusiyyətləri idi.

Murovdağ silsiləsindən başlayaraq hər bir döyüşdə Vüqarın necə mərd insan olduğunun şahidi oldum. Döyüş meydanında ermənilərin başına od-alov yağdırmaqla bərabər, gözünü qırpmadan yaralanmış və şəhid olmuş silahdaşlarımızın mərmi “yağışı” altından çıxarılmasında, yaralılara ilkin tibbi yardım göstərilməsində, eləcə də ən çətin digər tapşırıqların yerinə yetirilməsində hər zaman fərqlənirdi Vüqar.

Sonuncu tapşırığımız düşmənin Füzuli-Cəbrayıl rayonları istiqamətində strateji cəhətdən əlverişli ərazidə mövqelənmiş top batareyasını məhv etmək idi. Aldığımız kəşfiyyat məlumatına əsasən burada ermənilərin 8 ədəd 150 millimetrlik topu və xeyli sayda canlı qüvvəsi cəmləşmişdi. Bizim qrup atəş dəstəyi ilə müxtəlif istiqamətlərdən düşmənin xeyli sayda canlı qüvvəsini məhv edə-edə irəliləyərək, əsas mövqeyinə yaxınlaşmışdı. Ermənilərlə aramızda 10-15 metrə qədər məsafə vardı. Şiddətli döyüş gedirdi. Bu vaxt düşmənin bizim istiqamətə pulemyotdan atdığı güllələrdən biri Vüqarın sinəsindən dəydi. İlkin tibbi yardım göstərməyimizə baxmayaraq, yarası ağır olduğundan, Vüqar qollarımın arasındaca gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəldi.

Lakin biz erməni pulemyotçusu da daxil olmaqla, onların bütün şəxsi heyətini və toplarını məhv edib mövqelərini ələ keçirdik”.

Gizir V.Ələkbərov 2020-ci il oktyabrın 15-də Ucar rayonunun Qazyan kənd qəbiristanlığında torpağa tapşırılıb. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə o, (ölümündən sonra) “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

*mayor Anar Əhmədov*

# Külli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb

**Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən külli miqdarda narkotik vasitə və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilərək realizə olunmasının qarşısı alınıb.**

Belə ki, Baş İdarənin Cənub Bölgəsində Regional Şöbəsinin əməkdaşlarının Yardımlı rayonunda həyata keçirdikləri əməliyyat nəticəsində rayonun Avaş kənd sakini Rahil İmanov narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olmaqda şübhəli bilindiyi üçün saxlanılıb. Araşdırma zamanı onun qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilən külli miqdarda heroni Şirvan şəhərində anbar kimi istifadə etdiyi evdə gizlətdiyi müəyyən edilib. Polislər tərəfindən həmin mənzilə baxış zamanı ümumi çəkisi



20 kiloqram 675 qram olan heroin, elektron tərəzi, narkotik vasitələrin satışından əldə olunan pul vəsaitləri və mobil telefon aşkar edilib. R.İmanov ifadəsində qeyd edib ki, aşkarlanan külli miqdarda heroinin Şirvan şəhəri və ətraf rayonlarda satışını həyata keçirməli, narkotik vasitələrin satışından əldə olunan pulu isə heroini aldığı xarici ölkə vətəndaşına onlayn yolla göndərməli imiş.

Baş İdarə əməkdaşlarının Sabunçu rayonunda həyata keçirdikləri əməliyyat zamanı isə paytaxt sakini Təhmin Rzaxanov saxlanılıb. Onun üzərindən 94 qram heroin, yaşadığı evdən isə 1 kiloqram tiryək, 4 kiloqram 930 qram heroin, 3 kiloqram marixuana və yaş çəkisi 7 kiloqram 105 qram olan 50 ədəd çətənə kolu aşkar edilib. Saxlanılan şəxs narkotik vasitələri satmaq məqsədi ilə əldə etdiyini bildirib.

Baş İdarə əməkdaşlarının Masallı rayonunda həyata keçirdikləri növbəti əməliyyat zamanı isə rayon sakini Sahil Məmmədli və paytaxt sakini Tural Rəhimov saxlanılıblar. Bu şəxslərin üzərindən ümumilikdə 9 qrama yaxın heroin, Masallı rayonunda gecələmək üçün müvəqqəti qaldıqları ünvana baxış zamanı isə əlavə 6 kiloqram 490 qram heroin və 2 kiloqram 550 qram tiryək aşkar edilib. Onlar ifadələrində külli miqdarda narkotik vasitəni sosial şəbəkələrdə tanış olduqları xarici ölkə vətəndaşından əldə etdiklərini bildiriblər. Həmin şəxs isə heroin və tiryəki qaçaqmalçılıq yoluyla naməlum şəxslərin köməkliyi ilə ölkə ərazisinə keçirərək əvvəlcədən müəyyən edilən yerdə S.Məmmədli və T.Rəhimova təhvil veriblər.

Baş İdarənin Cənub Bölgəsində Regional Şöbəsinin əməkdaşlarının Lerik rayonunda həyata keçirdikləri əməliyyat zamanı isə əvvəllər məhkum olmuş rayon sakini psixotrop maddələrin satışında şübhəli bilinən Qədir İmanov saxlanılıb. Onun üzərinə baxış zamanı 5 qrama yaxın psixotrop maddə olan metamfetamin və elektron tərəzi aşkar edilib. Q.İmanov ifadəsində metemfetamini tanışı Lənkəran şəhər sakini Eduard adlı şəxsdən aldığını bildirib. Baş İdarə əməkdaşları tərəfindən Lənkəran şəhər sakini əvvəllər məhkum olunmuş Eduard Rəfiyev də saxlanılaraq istintaqa təqdim edilib. Onun üzərinə baxış zamanı 1 kiloqram 315 qram heroin, 257 qram metamfetamin, 20 ədəd psixotrop tərkibli metadon həbi və 2 ədəd elektron tərəzi aşkar edilib. E.Rəfiyev tanışı Q.İmanova narkotik vasitələri satdığını, Lənkəran şəhəri və ətraf rayonlarda bu işlə məşğul olduğunu etiraf edib.

Sonuncu əməliyyatlar zamanı Baş İdarənin əməkdaşları tərəfindən ümumilikdə 40 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddə qanunsuz dövriyyədən çıxarılıb.

*Anar Qafarov,*
*polis mayoru*

# Bizə yazırlar...

**Bakı şəhər sakini Hikmət Qasımov** DİN-ə ünvanladığı məktubunda yaşadığı mənzildə oğurluq hadisəsinin baş verməsi ilə əlaqədar DİN-nin 102 Xidməti Zəng Mərkəzinə müraciət etdiyini bildirir. O, qeyd edir ki, müraciətindən dərhal sonra Yasamal RPİ-nin 29-cu Polis Bölməsinin əməkdaşları hadisə yerinə gəlib mənzilə baxış keçiriblər. Polis əməkdaşlarının operativliyi və çevikliyi nəticəsində oğru aşkar edilərək tutulub. Vətəndaş H.Qasımov ona dəymiş ziyanın ödətdirilməsinə görə Yasamal RPİ-nin 29-cu Polis Bölməsinin şəxsi heyətinə təşəkkürünü bildirir.

Dələduzluqla üzləşən **Quba rayon sakini Elçin Yüzbaşıyev** isə belə yazır: “2008-ci ildə mənə məxsus torpağın sənədini girov qoyaraq tanışıma bankdan kredit götürmüşdüm. Tanışım kredit borcunu ödəməkdən yayındığı üçün illər idi ki, torpağımı girovdan çıxara bilmirdim. Buna görə də kömək üçün üz tutdum Quba Rayon Polis Şöbəsinə. Orada məni dinləyib, ərizəmi qəbul etdilər. Polisin səyi nəticəsində qısa müddətdə problemim aradan qaldırıldı. Buna görə Quba RPŞ-nin şəxsi heyətinə dərin minnətdarlığımı bildirirəm”.

Övladının daxili işlər orqanlarının sıralarına qəbul olunmasında göstərilən köməkliyə görə **Bakı şəhər sakini Nurəddin Mehdixanlı** DİN rəhbərliyinə minnətdarlıq edir.

**Bakı şəhər sakini Yasəmən Hüseynova** isə DİN rəhbərliyinə ünvanladığı məktub vasitəsilə övladlarına şəxsiyyət vəsiqəsi almaq üçün etdiyi müraciətə çevik baxılmasına, səmimi münasibətə və yüksək səviyyəli xidmətə görə Sumqayıt Şəhər Polis İdarəsinin Qeydiyyat və Şəxsiyyət Vəsiqəsi Şöbəsinin və Sumqayıt ASAN xidmətinin əməkdaşlarına dərin təşəkkürünü bildirir.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# “İKİNCİ NƏFƏS” sərgisi

## Tədbirdə iştirak edən əməkdaşlarımız maarifləndirici söhbət aparıblar

**İnsan alverinə qarşı mübarizədə maarifləndirici tədbirlərə xüsusi önəm verilir. Bugünlərdə Azərbaycan Uşaqları İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən “30 iyul-İnsan alverinə qarşı mübarizə günü”nə həsr olunan “İkinci nəfəs” adlı sərgidə Daxili İşlər Nazirliyinin əməkdaşları da iştirak ediblər.**



Bir neçə qeyri-hökumət təşkilatının da qatıldığı tədbirin keçirilməsində əsas məqsəd uşaqların fərdi yaradıcılıq və əl qabiliyyətlərinin inkişaf etdirilməsi, həmçinin tullantılardan düzgün istifadə etməklə onların yararlı hala gətirildiyini cəmiyyətin diqqətinə çatdırmaq olub. Sərgidə uşaqlar tərəfindən Azərbaycan milli atributlarını, toxuma nümunələrini özündə əks etdirən əl işləri, Şuşa şəhərinin, Xüdafərin körpüsünün maketi və s. nümayiş etdirilib.



Sərgiyə dəvət edilən **Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova** “Polis”ə bildirib ki, karantin qaydalarına əməl edilməklə keçirilən tədbirdə çıxış edən həmkarlarımız iştirakçılara cinayətkarların yeniyetmə və gəncləri insan alverinə necə cəlb etmələri, insanların özünü bu bəladan qoruma yolları, bu sahədə fəaliyyət göstərən dövlət qurumları və onların qaynar xətt xidmətləri barədə məlumat veriblər. Əməkdaşlarımız tədbir iştirakçılarını bu sosial bəlaya qarşı mübarizənin mahiyyəti və formaları, bu istiqamətdə həyata keçirilmiş təşkilati və əməliyyat-axtarış tədbirləri, insan alveri qurbanları ilə davranış qaydaları haqqında da məlumatlandırılıblar.

*"Polis"*

# ANDINA DA SADİQDİR, ADINA DA

## *Döyüşən oğullarımızı tanımalıyıq, tanıtdırmalıyıq*

**Vətən müharibəsində qazi olan igid hərbi qulluqçularımızdandır çavuş Çingiz Ənvər oğlu Beydiyev. O, 1992-ci il iyunun 13-də Şəki rayonunun Oxud kəndində doğulub. 1998-2010-cu illərdə doğma kəndindəki Nurpaşa Hümmətov adına tam orta məktəbdə təhsil alıb.**





2010-cu ilin iyul ayından 2012-ci ilin yanvar ayınadək Ənvər Dövlət Sərhəd Xidmətinin sıralarında müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmətdən qayıtdıqdan sonra 3 il Şəki Rayonlararası Mühafizə Şöbəsində mülki mühafizəçi vəzifəsində işləyib. O, 2016-cı ilin mart ayında Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmət etmək üçün sənədlərini verərək, Lənkəran rayonunda yerləşən "N" saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsində atıcı vəzifəsinə təyin olunub. Həmin ilin dekabr ayında isə xüsusi təyinatlı dəstəyə keçirilib. Xüsusi təyinatlı dəstənin atəş təminatı və xüsusi həmlə qrupunda heyət nəfəri vəzifəsində xidmət edən hərbi qulluqçumuz 2020-ci ilin may ayında xüsusi həmlə qrupunda atıcı-qumbaraatan vəzifəsinə təyin edilib. Vətən müharibəsi başlayana qədər bu vəzifədə xidmət edən Ənvər xüsusi təyinatlıların sırasında torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qoşulub. Xüsusi təyinatlı kimi də təlim və məşğələlərdə qazandığı təcrübə döyüş sınağında onun köməyinə yetib.

Qazimiz Vətən müharibəsində Füzuli, Cəbrayıl və Şuşa istiqamətlərində aparılan hərbi əməliyyatlarda fəal iştirak edib.

Deyir ki, 2020-ci ilin oktyabr ayında Füzuli rayonununda "Beton post" adlanan ərazidə şiddətli döyüşlər gedirdi. Düşmənin artilleriyası susmaq bilmirdi. İtkilərimiz olsa da onların postlarını və atəş nöqtələrini darmadağın etdik.

Ənvərin daxil olduğu qrup işğaldan azad olunan Cəbrayıl rayonunda axtarış əməliyyatlarında iştirak edib. Digər bölmələrlə yanaşı, bu qrupun da qarşısına qoyulan növbəti döyüş tapşırığı Şuşanın azad olunması olub. Hərbi qulluqçumuz Şuşa döyüşlərində də öz mətinliyi ilə fərqlənib, düşmənə sarsıdıcı zərbələr vurub.

Onların qrupu Şuşaya meşə və dağ keçidlərini aşaraq həmlə ediblər. Onlara şəhərin yaxınlığında əlverişli mövqelərin tutulması, düşmənin köməyə gələ biləcək canlı qüvvəsinin qarşısının alınması tapşırıqları verilib.

Mayor Cavid Tağıyevin rəhbərliyi altında (hazırda "N" saylı hərbi hissədə "Gürzə" şərti adı daşıyan xüsusi təyinatlı dəstənin komandiri) Şuşa ətrafındakı meşəlik ərazidə irəliləyərək Xankəndidən Şuşaya gələn yolu nəzarətə götürmək üçün "Zapravka" deyilən əraziyə istiqamət alıblar. Ənvər burada noyabr ayının 6-da yaxın məsafədə gərgin döyüşlərin getdiyini deyir: "Həmin əraziyə çatanda düşmən zirehli texnika ilə bizi atəşə tutmağa başladı.

*Ardı 4-cü səhifədə.*

# Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin birgə məlumatı

Avqustun 2-də daxil olmuş məlumat əsasında Siyəzən Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotik vasitələrin alqı-satqısında şübhəli bilinən rayon sakini 1990-cı il təvəllüdlü Tural İsmayılovun evində keçirilmiş axtarış zamanı 8 ədəd bükülüdə psixotrop maddə olan metamfetamin aşkar olunaraq götürülmüşdür.

Tural İsmayılov şübhəli şəxs qismində tutularaq saxlanılması üçün Siyəzən RPŞ-nin Müvəqqəti Saxlama Yerinə təhvil verilmişdir. Həmin gün saat 22:00 radələrində onun səhhəti saxlanıldığı MSY-də qəfildən pisləşdiyindən polis əməkdaşları tərəfindən o, dərhal Siyəzən Regional Diaqnostika və Müalicə Mərkəzinə yerləşdirilmiş, lakin həkimlərin səyinə baxmayaraq Tural İsmayılov orada ölmüşdür.

Hazırda faktla bağlı Siyəzən rayon prokurorluğunda araşdırma aparılır.

Tural İsmayılovla eyni və qonşu kameralarda saxlanılan şəxslərin və növbədə olan polis əməkdaşlarının izahatları alınmış, məhkəmə-tibb ekspertizası təyin edilmiş, hadisə yerinə və meyitə baxış keçirilmiş və digər zəruri prosessual hərəkətlər həyata keçirilmişdir.

Qeyd edilməlidir ki, ekspert tərəfindən keçirilmiş ilkin xarici müayinə zamanı meyit üzərində hər hansı xəsarət aşkar edilməmişdir.

Araşdırmanın nəticəsindən asılı olaraq qanuni qərarın qəbul edilməsi təmin ediləcəkdir.

# "ARZU ÖMRÜ UZATMIR"

**Həmkarımız, polis polkovnik-leytenantı Hafiz Təmirovun "Arzu ömrü uzatmır" adlı yeni kitabı işıq üzügörüb.**




Oxucuların görüşünə könlü dolu gələn müəllifin növbəti kitabında yeni şeirləri ilə yanaşı, Vətənə, torpağa, sevgiyə və Vətən müharibəsi qəhrəmanlarına həsr olunmuş publisistik məqalələr də daxil edilib.

Kitabın redaktoru 178 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Elnarə Nəbiyeva, ön sözün müəllifi isə 100 nömrəli tam orta məktəbin müəllimi, Azərbaycan Yazıçılar birliyinin üzvü, Prezident təqaüdçüsü Könül Səiddir.

Həmkarımızın böyük yaradıcılıq təcrübəsi var. Belə ki, 2009-cu ildə istedadlı gənclər üçün nəzərdə tutulmuş Prezident təqaüdünə layiq görülən H.Təmirovun "Sevgi dolu ürəyəm", "Gözləmə nə vaxtsa qayıtmağımı", "Atillaya məktub", "Dərdimdən ölən dərdlərim", "İşıq", "Sevgi də bir Vətəndir" və "Xatirən var" kitabları oxucuların və sənət cameəsinin rəğbətini qazanıb.

Qeyd edək ki, polis polkovnik-leytenantı Hafiz Təmirov Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

**Polis övladı olmaq bu peşənin çətinliklərinə ailə olaraq ortaq olmaq deməkdir. Təbii ki, elə qüruruna da. Bəzən isə onlar özləri polis atanın, ananın, bütövlükdə isə ölkənin iftixarına çevrilirlər. Aylin Ənsari kimi.**






# BÖYÜK QƏLƏBƏLƏRİN BALACA BƏLƏDÇİSİ

Haqqında bəhs edəcəyimiz 11 yaşlı Aylin Ənsari idmanın bədii gimnastika növü ilə məşğul olur. Gücü, gözəlliyi və harmoniyanı özündə birləşdirən gimnastika üzrə balaca Aylin əsl istedaddır. Onun uğurlu çıxışları gələcəkdəki böyük qələbələrə indidən bələdçilik edir. O, artıq dəfələrlə respublika və beynəlxalq səviyyəli yarışlarda iştirak edib, qələbə qazanıb.

Aylinin anası Mehriban Ənsari Yasamal RPİ Post-Patrul Xidməti Bölüyündə polis nəfəri kimi xidmət edən yeganə xanım əməkdaşdır. 2015-ci ildən daxili işlər orqanlarında xidmət edən həmkarımız gündəlik xidməti tapşırıqları icra etməkdən başqa, indiyədək ölkəmizdə keçirilən bütün beynəlxalq kütləvi tədbirlərdə təhlükəsizliyin təmin edilməsinə cəlb edilib.

Haqlı olaraq qızı haqqında fəxrlə danışır.

Deyir ki, Aylin 2018-ci ildə Polşanın Gdania şəhərində 28 ölkədən 300 gimnastın qatıldığı bədii gimnastika üzrə Beynəlxalq səviyyəli yarışda uğurla çıxış edərək IV yerə layiq görülüb. Ölkə daxilində keçirilən yarışlarda da həmişə yüksək fəxri pillədə dayanıb. O, həmçinin 2017-ci ildə "Payız ulduzları" Start açıq birliyinin kuboku uğrunda çoxnövçülük hərəkətləri üzrə yarışda I yer tutub. Onun nailiyyətləri sırasına ötən il "Xəyala doğru bir addım" 1-ci İsmayıllı kubokunda topla hərəkətlərinə görə bədii gimnastika üzrə yarışlarda qazandığı II yeri də əlavə etsək, bu polis övladını gələcəkdə daha böyük uğurlar gözlədiyini əminliklə söyləyə bilərik.

Aylinin uğurlarında sözsüz ki, təhsil aldığı məktəbin də rolu var. O, əlaçıdır. Təhsilin və idmanın vəhdəti onun uğurlarına yol açır.

Klub çərçivəsində keçirilən yarışlarda qazandığı qələbələr balaca Aylinin idmana açılan yolunun ilk cığırlarıdır. Məşqçiləri deyir ki, halqalarla, lentlərlə hərəkəti musiqinin ahəngi ilə birləşdirən Aylin ən çətin hərəkətləri ustalıqla yerinə yetirir. Hələ kiçik olsa da, böyük arenalarda məharətini göstərən Aylin Ənsari özündən böyüklərin məşqlərinə baxmaqla maraq dünyasını zənginləşdirir. Maraq, həvəs olan yerdə isə qələbə qaçılmazdır. Həmkarımızın övladına uğurlar, seçdiyi yolda qələbələrinin davamlı olmasını arzulayırıq.

*R.Mehtiyev*

# HƏYATIN DİBİNDƏKİ HƏYAT

## *Polislər küçədəki körpənin ümidi oldu*



**Küçədə piyada səkisinin üstündə mürgüləyən körpənin beşiyini daş piltələr əvəz edib. Hər gün yanından ötüb keçənlərin ayaq səslərini, avtomobil nəriltisini ana laylası kimi eşidib, yuxuya gedib. Yenicə göz açdığı həyatda gün üzü görməyən bu körpənin "beşiyi" elə doğulduğu andan həyatın dibində yırğalanıb. Onun mürgülədiyi bu "dərinliyə" heç zaman gün işığı düşməyib.**

Bəlkə körpənin həyatı elə bu cür davam edəcəkdi, ya da bir gün onun məsum gözlərinə əbədi qaranlıq çökəcək və hər şey qəfil bitəcəkdi. Gün düşməyən bu yerdəki bir körpənin başına gələ biləcək faciəyə görə fəryad edəcək anası da olmayacaqdı. Çünki onun anasının analıq duyğularını narkotik çoxdan öldürüb...

Ancaq, bu ümidsiz vəziyyətə baxmayaraq, uğursuz başlamış həyat hekayəsində hər şey qəfil dəyişib. Həyatın dibindəki bu balacanın həyatı ətrafdakı vətəndaşların diqqəti, polisin operativliyi sayəsində xilas olub.

Sosial şəbəkələrdə bir qadının Yasamal rayonu ərazisində körpə uşağı ilə dilənməsini əks etdirən videogörüntünü araşdıran polisə bununla bağlı vətəndaşlar da müraciət ediblər. DİN-in "102" Xidməti Zəng Mərkəzinə məlumat verən vətəndaşlar bələkdəki körpəni küçədə nəzarətsiz qoyan qadının dilənçilik etdiyini, bunun isə onlarda narahatlıq yaratdığı barədə məlumat verib, kömək istəyiblər. Müraciətləri nəzərə alan Yasamal RPİ-nin əməkdaşları qadının tapılması və uşağın taleyi ilə bağlı ciddi tədbirlərin görülməsi üçün dərhal axtarışlara başlayıblar.

Polis əməkdaşları müəyyən ediblər ki, videogörüntülərdə olan qadın paytaxt sakini Rövşanə Kərimovadır. Yasamal RPİ PPXB əməkdaşları azyaşlı övladı ilə birlikdə dilənən qadını tapıb sığınacağa yerləşdiriblər.

Ana və uşağın taleyi ilə bağlı "Polis"in suallarını cavablandıran **Yasamal RPİ-nin İctimai Təhlükəsizlik Şöbəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin rəisi, polis mayoru Nəbi Nəcəfov** deyib ki, övladını küçədə nəzarətsiz qoyub dilənən ana narkotik istifadəçisidir və tüfeyli həyat tərzi keçirir. Bölmə rəisinin sözlərinə görə, yeni doğulan uşağın həyat və sağlamlığının qorunması məqsədilə, o, körpələr evinə yerləşdirilib, anası barədə isə araşdırmalar aparılır.

Körpə artıq etibarlı əllərdə - dövlətin himayəsindədir!

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# ANDINA DA SADİQDİR, ADINA DA

## Döyüşən oğullarımızı tanımalıyıq, tanıtdırmalıyıq

*Əvvəli 3-cü səhifədə*

Qrupun tərkibində iriçaplı silahlar az olduğundan, düşmənin zirehli texnikalarına qarşı mübarizə aparmaq çətin idi. Mənim RPQ-7 qumbaraatanı ilə düşmənin zirehli texnikasına atəş açmağım nəticəsində 2 tank zərbə alaraq geri çəkildi. İşğalçıların xeyli sayda canlı qüvvəsi isə məhv edildi. Yaralanan hərbi qulluqçularımız oldu. Düşmən tankından bizim mövqeyə atılan mərminin qəlpələri mayor Cavid Tağıyevi qolundan və ayağından yaraladı".

Qazimiz yaralanmasını belə xatırlayır: "Düşmən yaxın məsafədə döyüşdə məğlub olduğundan, uzaq məsafədən mövqelərimizi tank və minaatanlardan atəşə tuturdu. Noyabrın 6-da axşam vaxtı Şuşa-Xankəndi yolunda düşmən tankından bizim mövqeyə atılan mərminin partlaması nəticəsində ayaqlarımdan qəlpə yarası aldım. Mənimlə pusquda olan xüsusi təyinatlı qüvvələrin 2 nəfər zabiti də yaralandı. Yaralı vəziyyətdə meşə istiqamətində təxminən 100 metrə kimi süründüm. Meşədə digər yaralılarımızın saxlandığı yerə gəldim. Yaralanmağıma baxmayaraq, bu halda həmin gün və səhəri gün axşama qədər döyüşçü yoldaşlarımla birlikdə döyüşü davam etdirdim. Burada dəstəmizin hərbi qulluqçularından kömək üçün gələn baş çavuş Kənan Kərimov, çavuşlar Mehrac Qarayev və Zamiq Ağayevin də olduğu təxminən 15 nəfərlik qrup yaralılarımızın düşmənə əsir düşməsinin qarşısını almaq üçün mövqelənərək atəş nöqtələri qurmuşdular. Onlar, həmçinin, Xankəndi istiqamətindən Şuşaya gələn işğalçıların qüvvələrini pusquya salaraq məhv edirdilər. Düşmən buradakı yaralıların və pusqu qrupunun olduğunu müəyyən etdiyindən, tank və 100 nəfərə yaxın canlı qüvvə ilə bizim tərəfə həmləyə keçdi. Sayca üstün olan düşmənə qarşı qorxmadan yaxın məsafədə mübarizə aparırdıq. Düşmən tankının yaxınlaşdığını görən baş çavuş Kənan Kərimov məsafənin təxminən 20 metrliyində tankın qarşısına çıxaraq qumbaraatanla atəş açdı. Bu atışdan zədə alan tank Xankəndi istiqamətində geri çəkildi. Bundan qorxuya düşüb qaçmağa cəhd edən düşmənin 100 nəfərə yaxın canlı qüvvəsi məhv edildi".

Ənvər düşmənin bir neçə zirehli texnikasını sərrast atışları ilə sıradan çıxaran, canlı qüvvəsini ciddi itkiyə məruz qoyan, döyüşçülərimizin irəliləməsində hünər göstərən, onunla birlikdə xidmət etmiş baş çavuş Kənan Kərimovun, çavuşlar Mehrac Qarayev və Zamiq Ağayevin xidmətlərinin unudulmayacağını bildirdi.

Azərbaycan Respublikası Prezidentinin 18, 25 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Ə.Beydiyev "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Çavuş Ə.Beydiyev hazırda xidmətini davam etdirir. O, bu ilin mayında Azərbaycan sərhəddini pozaraq silahlı insidentdən sonra hadisə yerindən qaçan və Yardımlı rayonunun ərazisində gizlənən İran vətəndaşlarının zərərsizləşdirilməsi üzrə əməliyyatda da fəal iştirak edib.

Belə hərbi qulluqçularımızın fədakar xidməti şəxsi heyət üçün layiqli nümunədir.

*kapitan Sadıq Rəfiyev*

# Daxili İşlər Nazirliyi Mətbuat Xidmətinin MƏLUMATI

Ölkə ərazisində elan edilən xüsusi karantin rejiminin pozulması hallarının qarşısının alınması məqsədi ilə Daxili İşlər Nazirliyi tərəfindən tədbirlər diqqət mərkəzində saxlanılır.

Paytaxtın Nərimanov rayonunda "İnfiniti" və "Extra" gecə klublarında epidemiya əleyhinə və karantin rejimlərinin pozulması halları aşkar olunub.

Polis tərəfindən keçirilən tədbirlərlə həmin gecə klublarının rəhbərliyi müəyyən olunaraq saxlanılıb.

DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində fakta görə Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

"İnfiniti" gecə klubunun rəhbərliyi – Samiq Babayev, Jamal Nasser, "Extra" gecə klubunun rəhbərliyi Dilsuz Dəmirçiyev, Əmrah Yusifov həbs ediliblər.

Hazırda iş üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# İctimai birlikdən polisə dəstək



DİN yanında ictimai şurada təmsil olunan "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi avqustun 1-də nəzdində fəaliyyət göstərən Qadın və uşaq sığınacağının uşaq sakinlərinin rəsm sərgisini təşkil edib.

30 iyul İnsan alveri ilə beynəxlalq mübarizə gününə həsr olunmuş sərginin məqsədi "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020—2024-cü illər üçün Milli Fəaliyyət Planı"na uyğun şəkildə insan alverinə qarşı mübarizə ilə bağlı maarifləndirmə, habelə İnsan alveri qurbanlarına kömək Fondunun fəaliyyətinə dəstəyin artırılmasıdır.

Birlik sərgidəki rəsmlərin satışından əldə olunan vəsaiti DİN-in İnsan Alveri Qurbanlarına Kömək Fondunun hesabına köçürüb.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Xəzər RPİ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 27-də Qala qəsəbəsi ərazisində Xəzər Həsənovun ölümü ilə nəticələnmiş yol-nəqliyyat hadisəsinin "Kia" markalı avtomobillə törədilməsi müəyyən edilmiş və həmin nəqliyyat vasitəsinin sürücüsü, Bakı şəhər sakini R.Məmmədov saxlanılmışdır.

◆◆◆

**Nizami RPİ 24-cü PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində avqustun 1-də Bakı şəhər sakini T.Abdullayevanı dəmir parçası ilə hədələyib quldurluq yolu ilə mobil telefonunu almaqda şübhəli bilinən paytaxt sakini R.Hüseynov müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Kəpəz RPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Gəncə şəhərində yaşayan əvvəllər məhkum olunmuş İ.Cəfərova məxsus yardımçı təsərrüfatdan kultivasiya yolu ilə yetişdirilmiş 66 ədəd çətənə kolu, 690 qram marixuana, yaşadığı evə baxış zamanı isə 1 ədəd "AK-74" markalı avtomat silahı, 1 ədəd avtomat səsboğucusu, 1088 ədəd patron və 3 ədəd patron darağı aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Suraxanı RPİ 30-cu PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Dədə Qorqud qəsəbəsində yerləşən orta məktəblərin birindən 2 ədəd noutbuk, 2 ədəd monitor və 5 ədəd elektrik tənzimləyici oğurlamaqda şübhəli bilinən qəsəbə sakini C.Qənbərov saxlanılmışdır.

◆◆◆

**Nəsimi RPİ 21-ci PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş B.Əliyev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 591 qrama yaxın metamfetamin və 8 qrama yaxın heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Lənkəran ŞRPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər ərazisindəki mağazaların birində satıcı G.Abbasovanın çantasından 1930 manat pul oğurlamaqda şübhəli bilinən rayon sakini V.İbadova saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin və metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Yardımlı RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında Zövin kəndində yaşayan əvvəllər məhkum olunmuş R.Beybudovun evində keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində oradan 3 kiloqramdan artıq tiryək, 2 kiloqram 210 qram metamfetamin və 48 ədəd metadon həbi aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Masallı RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Ərkivan qəsəbə sakini, əvvəllər məhkum olunmuş F.Abdinov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 4 qrama yaxın, idarə etdiyi "Mercedes" markalı avtomobilə baxış zamanı isə 5 qramdan çox heroin aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun yaşadığı evə baxış zamanı isə oradan əlavə 6 kiloqram heroin və 1 kiloqram 450 qram tiryək aşkar edilərək götürülmüşdür.

# Narkotik tərkibli bitkilər məhv edildi

"Xaşxaş-2021" şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər davam etdirilir.

Belə ki, Siyəzən RPŞ-nin əməkdaşları Böyük Həmyə kənd sakini A.Məmmədova məxsus həyətyanı sahədən 4 ədəd, habelə onun əmisi oğluna məxsus həyətyanı sahədən 2 ədəd, Masallı RPŞ-nin əməkdaşları Hişkədərə kənd sakini T.Əliyevə məxsus həyətyanı sahədən 13 ədəd, Göygöl RPŞ-nin əməkdaşları şəhər sakini B.Rzayevə məxsus həyətyanı sahədən 51 ədəd, Ağcabədi RPŞ-nin əməkdaşları Kəhrizli kənd sakini N.Nəsirova məxsus həyətyanı sahədən 27 ədəd, İsmayıllı RPŞ-nin əməkdaşları Göytəpə kəndinin meşə ərazisində kənd sakinləri N.Mirzəliyev və T.Məmmədov tərəfindən yetişdirilmiş 41 ədəd, Qusar RPŞ-nin əməkdaşları Aşağı İmamqulukənd kənd sakini, əvvəllər məhkum olunmuş R.Xəlilova məxsus torpaq sahəsindən 4 ədəd, Quba RPŞ-nin əməkdaşları 1-ci Nügədi kənd sakini, əvvəllər məhkum olunmuş F.Ağayeva məxsus həyətyanı sahədən 42 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolları aşkar edərək götürmüşlər.

Saatlı RPŞ-nin əməkdaşları tərəfindən Dədə Qorqud kəndi ərazisində çəkisi 107 kiloqram olan 64 ədəd, Beyləqan RPŞ-nin əməkdaşları tərəfindən Mil qəsəbəsi ərazisində çəkisi 857 kiloqram olan 743 ədəd yabanı halda bitmiş çətənə kolları aşkar edilərək məhv edilmişdir.

# Monitorinqlər nəticəsində...

İyulun 1-dən avqustun 3-dək olan müddətdə Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 2932 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 1804 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;

- 33 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə inzibati qaydada həbs edilib;

- 24 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1.1-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb;

- 23 nəfər barədə material baxılması üçün məhkəməyə göndərilib;

- 27914 nəfər "COVID-19" pasportu olmadığına görə şənliyə buraxılmayıb.

*Natiq Cavadov,*
*polis mayoru*

## İyul ayının 28-dən avqustun 3-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində 359 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 54 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 196, o cümlədən borclu şəxs qismində axtarışda olan 138 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 24 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 25 nəfər ölmüş, 21 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 236 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9470
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik